# “Qaravəlli” tamaşasının premyerası Sumqayıt səhnəsində

**Sumqayıt Dövlət Dram Teatrında Mədəniyyət Nazirliyinin "Öyrədərək öyrənirəm" layihəsi çərçivəsində görkəmli yazıçı Anarın “Qaravəlli” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası keçirilib.**

Bu barədə teatrın Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, yeni yaradıcılıq işinin quruluşçu rejissoru Abdulla, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Elay Xasiyev, tamaşanın rejissoru isə Rəvan Hüseynzadədir. Səhnə əsərinin ritmikası Ramazan Xanlarova, musiqilərin ifası isə “Dərviş" qrupuna aiddir.

Tamaşanın əsas mövzusu cəmiyyətdə insanların bir fağır, zəif, ehtiyaclı insanı necə linç etməsi üzərində qurulub.

Səhnə əsərində obrazları Əməkdar artist İzaməddin Bağırov, aktyorlar Kamran Muradlı, Şəmistan Süleymanlı, İlham Səfərli, Elmir Mehdiyev, Habil Xanlarov, Elay Xasiyev, Aynur Hümmətova, İlahə Səfərova, Ramazan Xanlarov və Etibar Cəbiyev canlandırıblar.



Azərbaycan.-2025.- 8 iyul (№ 137).- S.11.